**ASC "Xalq" Bankının korporativ ödəniş kartlarının buraxılması və onlardan istifadə edilməsi Qaydaları**

**1. Ümumi müddəalar.**

1.1. Korporativ ödəniş kartlarının buraxılması, onlardan istifadə qaydası və şərtləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, müvafiq Ödəniş sisteminin qaydaları, Bankla Müştəri (Təşkilat) arasında bağlanmış ASC "Xalq" Bankının korporativ ödəniş kart(lar)ının buraxılması və on(lar)a xidmət göstərilməsi haqqında Müqavilə (bundan sonra – "Müqavilə") və Bankın daxili normativ aktları, o cümlədən hazırkı "ASC "Xalq" Bankının korporativ ödəniş kartlarının buraxılması və onlardan istifadə edilməsi" Qaydaları (bundan sonra – "Qaydalar") ilə tənzimlənir.

1.2. Korporativ ödəniş kartı Bankın mülkiyyətidir və Müştəriyə/Kart saxlayıcıya müvəqqəti istifadə üçün verilir.

1.3. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyin tələblərinə zidd olduqda, habelə bu Qaydalar, Müqavilə, habelə VİSA İnternational, MasterCard Worldwide beynəlxalq Ödəniş sistemlərinin qaydaları ilə nəzərdə tutulmuş hallarda Müştəriyə/Kart saxlayıcısına Kartdan istifadə etməklə əməliyyatın aparılmasından imtina edilə bilər.

1.4. Müştəri/Kart saxlayıcısı Kartın itirilməsinə və ya oğurlanmasına qarşı tədbirlər görməlidir. Korporativ ödəniş kartının itirilməsi və ya oğurlanması (Müştəri/Kart saxlayıcısı tərəfindən korporativ Ödəniş kartının itirilməsi və ya oğurlanmasına qarşı zəruri tədbirlər görülmədikdə) Bank tərəfindən Müştəri ilə bağlanmış Müqavilənin şərtlərinin Müştəri tərəfindən pozulması kimi hesab oluna bilər.

1.5. Bu Qaydalarda aşağıdakı terminlərdən və onların təriflərindən istifadə olunur, bu zaman Qaydalarda göstərilməmiş termin və onların tərifləri Müqavilədə nəzərdə tutulmuşdur:

1.5.1. **avtorizasiya** – Kartdan və ya onun rekvizitlərindən istifadə etməklə əməliyyatın aparılması üçün Bank tərəfindən verilən icazə. Avtorizasiya prosesində Kart və aparılması nəzərdə tutulan əməliyyatın məbləği barədə məlumatlar Müştərinin KH-sının vəziyyətinin yoxlanılması üçün Banka ötürülür;

1.5.2. **aktivləşdirmə** - Bankın avtorizasiya verməkdən imtinasını nəzərdə tutan, Kartın buraxılması zamanı Bank tərəfindən Kartdan istifadə etməklə məxaric əməliyyatlarının aparılmasına qoyulmuş texniki məhdudiyyətin Bank tərəfindən ləğv edilməsi proseduru;

1.5.3. **Korporativ ödəniş kartı** ("**Kart**") – Təşkilatın vəsaiti hesabına Azərbaycan Respublikasının ərazisində və xaricdə malların, iş və xidmətlərin nağdsız qaydada ödənilməsi, pul vəsaitlərinin köçürülməsi üçün nəzərdə tutulmuş fərdi ödəniş vasitəsi (aləti) olan VİSA İnternational və ya MasterCard Worldwide Ödəniş sistemlərinin beynəlxalq ödəniş kartıdır;

1.5.4. **Korporativ ödəniş kartının saxlayıcısı** ("**Kart saxlayıcısı**" və ya "**Saxlayıcı**") – Bank tərəfindən buraxılmış Kartı müvəqqəti istifadəyə almış Müştərinin işçisi olan fiziki şəxsdir. Korporativ ödəniş kartının üz tərəfində Təşkilatın adı göstərilir, bundan başqa Kartın üz tərəfində Kart saxlayıcısının adı və soyadı göstərilə bilər. Korporativ ödəniş kartının üz tərəfində yalnız Təşkilatın adı göstərildikdə Kart saxlayıcısı kimi Təşkilatın qanuni təmsilçisi çıxış edir bu şərtlə ki, Kartdan istifadə etməklə KH üzrə əməliyyatları həyata keçirmək hüququ Təşkilat tərəfindən qanunvericiliyin tələblərinə müvafiq olaraq rəsmiləşdirməklə başqa işçisinə həvalə edilməsin;

1.5.5. **Kart hesabı** ("**KH**") – Kartdan və ya onun rekvizitlərindən istifadə etməklə əməliyyatları həyata keçirmək üçün Bank tərəfindən Müştəriyə Müqaviləyə Qoşulma və/və ya korporativ ödəniş kartının buraxılması haqqında ərizəsi əsasında açılan bank hesabı;

1.5.6. **E-PİN** – Müştəri/Kart saxlayıcısı tərəfindən ŞEN-kodun xüsusi vasitələrdən (bankomat, Bankın internet şəbəkəsində olan rəsmi saytı, internet/mobil bankinq tətbiqi) istifadə edilməklə təyin olunması texnologiyasına əsaslanan xidmət;

1.5.7. **Əsas kart** – müvafiq KH üzrə Müştərinin (Təşkilatın) adına buraxılmış və digər (əlavə) Kartlarla müqayisədə birinci buraxılmış Kart;

1.5.8. **Əlavə kart** – Əsas кart ilə ümumi KH-ya malik olan korporativ ödəniş kartı;

1.5.9. **Şəxsi Eyniləşdirmə Nömrəsi** ("**ŞEN-kod**") – elektron terminallar və ya bankomatlar vasitəsilə aparılan əməliyyatlar zamanı Müştərinin/Kart saxlayıcısının eyniləşdirilməsi üçün istifadə olunan və Müştərinin hər bir Kartına Bank tərəfindən verilən/Müştəri (Kart saxlayıcısı) tərəfindən PİN Set və ya E-PİN xidmətlərindən istifadə etməklə hər bir Kart üzrə təyin edilən fərdi 4 (dörd) rəqəmli kod. ŞEN-kod yalnız Müştəriyə/Kart saxlayıcısına məlumdur;

1.5.10. **Ödəniş limiti** – Müştərinin KH-sında yerləşdirilmiş və hüdudlarında Kartdan istifadə etməklə əməliyyatların aparılması mümkün olan pul vəsaitinin məbləği;

1.5.11. **Texniki** (icazə verilməmiş) **overdraft** – Tərəflər arasında overdraftın təqdim edilməsi haqqında Sazişin olmadığı bir şəraitdə Müştərinin KH-sında olan vəsait qalığından artıq olan məbləğdə Kartdan istifadə etməklə əməliyyatların aparılması;

1.5.12. **Kartdan istifadə etməklə əməliyyat** ("**Əməliyyat**") – Ticarət-xidmət müəssisələrində və bankomatlar vasitəsilə nağdsız qaydada malların, iş və xidmətlərin ödənilməsi, Nağd vəsaitlərin verilməsi məntəqələrində ("məntəqə") və bankomatlarda nağd vəsaitlərin alınması, habelə Kartdan və ya onun rekvizitlərindən istifadə etməklə aparılan digər əməliyyatlar;

1.5.13. **Çıxarış** – KH üzrə ödənişlər və/və ya köçürmələr, habelə digər əməliyyatlar, o cümlədən Kartdan istifadə etməklə aparılmış əməliyyatlar barədə məlumatı əks etdirən sənəd;

1.5.14. **Prosessinq mərkəzi** – hesablaşmaların iştirakçıları arasında qarşılıqlı informasiya və texnoloji əlaqəni təmin edən hüquqi şəxs;

1.5.15. **3D Secure xidməti** – İnternet şəbəkəsində Müştəri/Kart saxlayıcısı tərəfindən icazə verilməmiş (avtorizə edilməmiş) Kart Əməliyyatlarının aparılması riskinin azaldılması və bu Əməliyyatların təhlükəsizliyini təmin etmək məqsədilə Kartdan (onun rekvizitlərindən) istifadə etməklə internet şəbəkəsində on-line rejimində əməliyyat həyata keçirilərkən 3D Secure parolunun daxil edilməsi yolu ilə Müştərinin/Kart saxlayıcısının əlavə autentifikasiyası üçün beynəlxalq Ödəniş sistemləri tərəfindən hazırlanmış təhlükəsizlik standartı;

1.5.16. **3D Secure parolu** – Kartdan (onun rekvizitlərindən) istifadə etməklə İnternet şəbəkəsində əməliyyat həyata keçirilən zaman Müştərinin/Kart saxlayıcısının eyniləşdirilməsi üçün istifadə olunan gizli parol;

1.5.17. **CVV2 və ya CVC2** ( "CVV2" - "Card Verification Value 2", "CVC2" – "Card Validation Code 2" ingilis dilində olan ifadələrin abbreviaturalıdır) – Ticarət-xidmət müəssisələrində Kartı fiziki olaraq təqdim etmədən və ya İnternet şəbəkəsində mal və xidmətlərin ödənilməsi zamanı Müştərinin/Kart saxlayıcısının eyniləşdirilməsi üçün nəzərdə tutulan üç rəqəmli təhlükəsizlik kodu (CVV2 - VİSA İnternational Ödəniş sisteminin Kartları üzrə, CVC2 - MasterCard Worldwide Ödəniş sisteminin Kartları üzrə);

1.5.18. **Ödəniş sistemi** - ödəniş əməliyyatlarının emalı, klirinqi və (və ya) hesablaşmaların aparılması üzrə rəsmiləşdirilmiş və standartlaşdırılmış ümumi mexanizm və qaydalara malik, üç və daha artıq iştirakçının üzv olduğu pul vəsaitinin köçürülməsi sistemi;

1.5.19. **Beynəlxalq Ödəniş sistemi** - VİSA İnternational və MasterCard Worldwide Ödəniş sistemləri;

1.5.20. **Ticarət-xidmət müəssisəsi** ("**TXM**") - Kartları ödəniş vasitəsi kimi qəbul edən və təqdim edilən mallara (iş və xidmətlərə) görə ödənişin təsdiqi kimi Kartlardan istifadə etməklə aparılan əməliyyatlar üzrə sənədləri tərtib edən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs (fərdi sahibkar);

1.5.21. **Kartın rekvizitləri** – Kartın Müştəriyə/Kart saxlayıcısına, Kartın emitentinə (Banka) və müvafiq Ödəniş sisteminə məxsus olduğunu müəyyən etməyə imkan verən Kartın üzərində olan və Kartda saxlanılan məlumat (Kartın nömrəsi, Kartın qüvvədə olma müddəti, Kartın maqnit lentinə və çipinə yazılmış kodlaşdırılmış

məlumat, Kartda göstərilən xüsusi simvollar və kodlar, Kartın digər rekvizitləri);
**1.5.22. Kartın bloklaşdırılması** – Kartdan istifadə etməklə əməliyyatların aparılmasına qoyulan qadağa. Qadağa müvəqqəti və ya daimi ola bilər və ya müvafiq ərazi ilə məhdudlaşdırıla bilər;
**1.5.23. Nağd vəsaitlərin verilməsi məntəqəsi** – Kartlardan istifadə etməklə nağd pul vəsaitlərin qəbul edilməsi və/və ya verilməsi üzrə əməliyyatların aparıldığı yer;
**1.5.24. QR-kod** – Müştərini/Kart saxlayıcısını, mal (iş və xidmət) barədə məlumatı, TXM-in/vəsait alanın bank rekvizitlərini eyniləşdirməyə imkan verən, habelə Bank tərəfindən qəbul edilən kvadratlar matrisindən ibarət ştrix-kodlardan istifadə olunmaqla Əməliyyatların aparılmasına dair göstərişin verilməsini təmin edən əməliyyatların aparılması texnologiyası;
**1.5.25. Məxfi söz** – Müştəri tərəfindən seçilərək Banka təqdim edilmiş Ərizədə və ya digər sənədlərdə göstərilən və Müştərinin telefon vasitəsilə və ya digər rabitə kanalları vasitəsilə eyniləşdirilməsi üçün Tərəflərin istifadə etdikləri hərflərdən ibarət kombinasiya;
**1.5.26. PİN Set** – Kart saxlayıcısı tərəfindən Bankın filialında/şöbəsində olan POS-terminal vasitəsilə ŞEN-kodun müstəqil və məxfi şəkildə təyin olunması üzrə xidmət.

## 2. Kartın buraxılması və saxlanması qaydası.

2.1. Müştərinin və ya Müştərinin işçisi olan Kart saxlayıcısının adına Kartın buraxılması və sonuncuya təhvil verilməsi Müştəri tərəfindən Müqavilə ilə nəzərdə tutulmuş qaydada Banka təqdim edilmiş "Qoşulma və/və ya korporativ ödəniş kartının buraxılması haqqında" Ərizənin (bundan sonra – Ərizə) Bank tərəfindən aksept edilməsindən, Müştəri tərəfindən isə Bankın Tarifləri ilə nəzərdə tutulduğu halda müvafiq pul məbləğlərinin (bank komissiyaların və s.) ödənilməsindən sonra Müqavilə ilə nəzərdə tutulmuş müddət ərzində həyata keçirilir.
2.2. Bank hazırlanmış Kartı bilavasitə Müştərinin qanuni təmsilçisinə və ya Müştəri tərəfindən Bankın tələblərinə müvafiq olaraq verilmiş etibarnamə əsasında onun səlahiyyətli nümayəndəsinə təqdim edir. Kart Müştərinin işçisi olan Kart saxlayıcısının adına buraxıldıqda həmin Kart bilavasitə Kart saxlayıcısına da təqdim oluna bilər. Bu zaman Kartın alınması Kartı təhvil alan şəxs tərəfindən Kartın təhvil verilməsinə dair sənəddə qol çəkməklə təsdiq edilir.
2.3. Müqavilə ilə nəzərdə tutulduğu halda Müştəri Əsas kart üzrə öz adına və ya işçinin adına Əlavə kartın buraxılması barədə Banka müraciət edə bilər. Bank tərəfindən müraciətə müsbət baxılması nəticəsində Müştəri/Kart saxlayıcısı özünə məxsus ŞEN-kodu olan Kartı alır.
2.4. Bankın Ödəniş kartlarının emissiya qaydasını tənzimləyən daxili normativ aktları ilə başqası nəzərdə tutulmadıqda Əsas kart üzrə buraxıla biləcək Əlavə kartların sayına məhdudiyyət qoyulmur.
2.5. Əlavə kart Bankın müəyyən etdiyi forma üzrə Müştərinin imzaladığı və ya Müştəri ilə adına Əlavə kart sifariş olunan Müştərinin işçisinin birgə imzaladıqları yazılı ərizənin, qüvvədə olan qanunvericiliyə və Bankın daxili normativ aktlarına müvafiq olaraq Əlavə kart Saxlayıcısının eyniləşdirilməsi və verifikasiyasının aparılması üçün (Əlavə kart Müştərinin işçisi olan Kart saxlayıcısının adına buraxıldıqda) tələb olunan sənədlərin Banka təqdim edilməsi şərtilə Bank tərəfindən həmin ərizənin aksept edilməsindən sonra buraxılır.
2.6. Müştəri Əlavə kartdan və ya onun rekvizitlərindən istifadə etməklə aparılmış bütün əməliyyatlara görə tam maliyyə məsuliyyəti daşıyır.
2.7. Korporativ ödəniş kartının Müştərinin işçisi olmayan şəxslərə istifadəyə və ya girova verilməsi qadağandır.
2.8. Kartın üz tərəfində kodlaşdırılmış məlumatı daxil edən mikroprosessor (çip) yerləşir. Kartdan istifadə etməklə əməliyyatların aparılmasının qeyri-mümkünlüyünə gətirib çıxara bilən çipin və ya Kartın mexaniki (cızıqlar, kirlənmə, Kartın bütövlüyünün pozulması və s.) zədələnmələrinə yol verilməməlidir.
2.9. Kartın arxa tərəfində Ticarət-xidmət müəssisələrində Kartı fiziki olaraq təqdim etmədən və ya İnternet şəbəkəsində mal, iş və xidmətlərin ödənilməsi zamanı Kartın eyniləşdirilməsi üçün nəzərdə tutulan üç rəqəmli təhlükəsizlik kodu CVV2/CVC2 mövcuddur (Bankın mobil/internet bankinq tətbiqində CVV2/CVC2 əks olunduğu virtual Kartlar istisna olmaqla).
2.10. CVV2/CVC2 kodunun gizli saxlanmasının təmin edilməsi üçün aşağıdakı qaydalara riayət olunması zəruridir:
- CVV2/CVC2 kodu Müştəri/Kart saxlayıcısı tərəfindən hər-hansı bir yerdə yazıldığı təqdirdə Kartı və həmin yazını ayrı-ayrı saxlamaq lazımdır;
- İnternet şəbəkəsində Müştəri/Kart saxlayıcısı tərəfindən icazə verilməmiş (avtorizə edilməmiş) Əməliyyatların aparılmasının qarşısını almaq məqsədilə kompyuterdə və ya digər elektron qurğuda CVV2/CVC2 kodunun yığılması zamanı kənar şəxslərin buna gizlicə baxmağa yol verməmək;
- Bankın "XalqOnline" internet/mobil bankinq tətbiqində Müştəri/Kart saxlayıcısı tərəfindən müvafiq Kart üzrə CVV2/CVC2 kodunun əldə edilməsi xidmətindən istifadə edilməsi nəticəsində Müştərinin/Kart saxlayıcısının SMS məlumatlandırma xidmətinə qoşulduğu mobil telefon nömrəsinə göndərilmiş CVV2/CVC2 kodu əks etdirən SMS-mesajı gizli saxlamaq.

## 3. ŞEN-kod

3.1. Müştəriyə/Kart saxlayıcısına təqdim edilmiş Kart üzrə ŞEN-kodun yaradılması bir qayda olaraq Kart saxlayıcısı tərəfindən PİN Set xidmətindən istifadə etməklə Bankın filialında/şöbəsində olan POS-terminal və ya E-PİN xidmətindən istifadə etməklə Banka məxsus bankomatlar, Bankın İnternet şəbəkəsində www.xalqbank.az ünvanında yerləşən sayt vasitəsilə müstəqil və məxfi şəkildə həyata keçirilir.
Müştəri tərəfindən Kart sifariş olunarkən Banka bildirilmiş istəyinə uyğun olaraq Bank Müştəriyə/Kart saxlayıcısına Kartı təhvil verdiyi zaman çap edilmiş ŞEN-kodla zərfi təqdim edə bilər.
3.2. Kartdan icazəsiz istifadənin qarşısını almaq məqsədilə Kart saxlayıcısı ŞEN-kodun nömrəsini Kartdan ayrılıqda saxlamalıdır.
3.3. ŞEN-kod yalnız Kart saxlayıcısına məlumdur. Heç kim Kart saxlayıcısından ŞEN-kodu bildirməyi tələb etmək hüququna malik deyil.
3.4. Korporativ ödəniş kartı Bank tərəfindən qeyri-aktiv buraxılır. Korporativ ödəniş kartını aktivləşdirmək üçün Kart saxlayıcısı bankomat və ya POS-terminal vasitəsilə ŞEN-kodu daxil etməklə birinci əməliyyatı keçirməli və ya KH üzrə balans barədə məlumatı əldə etməlidir.
3.5. E-PİN xidmətindən istifadə etməklə ŞEN-kodun Banka məxsus bankomat vasitəsilə yaradılması seçildikdə Bank tərəfindən Müştərinin Ərizəsinin aksept edilməsindən və Kartın buraxılması prosesinə başlandıqdan sonra Müştərinin/Kart saxlayıcısının Bankda qeydə alınmış mobil telefon nömrəsinə SMS mesajla müvəqqəti ŞEN-kod göndərilir. Kart saxlayıcısı Kartı bankomata daxil etməklə E-PİN bölməsinə keçid edir və müvafiq xanaya müvəqqəti ŞEN-kodu daxil edir. Bundan sonra Bankomatın ekranında açılan yeni sorğu pəncərəsində Kart saxlayıcısı istədiyi ŞEN-kodu daxil edir və açılmış növbəti sorğu pəncərəsində həmin ŞEN-kodu təkrar daxil etməklə Kart üzrə daimi ŞEN-kodu yaratmış olur.
Kart üzrə daimi ŞEN-kodun yaradılması ilə Kartın avtomatik aktivləşdirilməsi həyata keçirilir.
3.6. Təhlükəsizlik məqsədləri ilə ŞEN-kodun yaradılması üçün 1111, 1234, 6060 və s. kimi çox sadə rəqəm kombinasiyalarından istifadə etmək, habelə bir neçə Kart üzrə eyni ŞEN-kodu yaratmaq məsləhət görülmür.
3.7. E-PİN xidmətindən istifadə etməklə ŞEN-kodun Bankın www.xalqbank.az saytı vasitəsilə yaradılması seçildikdə Kart saxlayıcısı Bankın www.xalqbank.az saytında göstərilmiş təlimatlara uyğun hərəkət etməlidir.
3.8. ŞEN-kodun gizli saxlanmasının təmin edilməsi üçün aşağıdakı qaydalara riayət olunması zəruridir:
- ŞEN-kod Kart saxlayıcısı tərəfindən hər-hansı bir yerdə yazıldığı təqdirdə Kartı və həmin yazını ayrı-ayrı saxlamaq lazımdır;
- ŞEN-kodun rəqəmlərinin kombinasiyası elektron qurğunun klaviaturasında yığıldığı zaman bu məlumatlara üçüncü şəxslərin çıxış imkanlarının qarşısı alınmalıdır.
3.9. ŞEN-kodun yığılması zamanı rəqəmlər elektron qurğuların displeylərində qəsdən göstərilmir və şərti simvolla əvəz olunur. Yığılma zamanı səhvlərə yol verməmək vacibdir. ŞEN-kod 3 (üç) dəfə ardıcıl yanlış (istənilən vaxt dövrü ərzində, bir və ya fərqli elektron qurğulardan istifadə edilməklə) yığıldıqda Korporativ ödəniş kartı Bank tərəfindən bloklaşdırılacaq. Kartdan istifadə etməklə əməliyyatların bərpa edilməsi üçün Müştəri/Kart saxlayıcısı "XalqOnline" internet/mobil bankinq tətbiqində ŞEN-kodun səhv yığılma sayının sıfırlanması xidmətindən istifadə etməli və ya bu məqsədlə Müştəri tərəfindən Banka müraciət edilməlidir (Müqavilənin 5 №-li Əlavəsində nəzərdə tutlmuş ərizə formasında).
3.10. ŞEN-kodun yığılması və ya Kart saxlayıcısının çekdə imzası ilə təsdiq edilmiş Əməliyyatlar Müştərinin adından (Kart saxlayıcısı tərəfindən) aparılmış hesab edilir və həmin Əməliyyatlar üzrə Müştəri tam maliyyə məsuliyyətini daşıyır.
3.11. ŞEN-kodun dəyişdirilməsi aşağıdakı üsullardan biri ilə həyata keçirilə bilər:
- Müştərinin yazılı ərizəsinə əsasən Bank tərəfindən Kart yeni müddətə buraxıldıqda;
- Bankın Tariflərinə müvafiq olaraq və "Plastik kartların ŞEN-kodunun dəyişdirilməsi xidmətinə dair Qaydalar"la nəzərdə

tutulmuş qaydada Kart saxlayıcısı tərəfindən müstəqil şəkildə on-line rejimində Banka məxsus bankomatlar vasitəsilə. "Plastik kartların ŞEN-kodunun dəyişdirilməsi xidmətinə dair Qaydalar"la Müştəri/Kart saxlayıcısı Bankın internet şəbəkəsində aşağıdakı ünvanda yerləşən saytında: www.xalqbank.az tanış ola bilər;
- Müştəri tərəfindən ŞEN-kodun ləğv edilməsi və yeni ŞEN-kodun yaradılması haqqında Bankın filialına/şöbəsinə yazılı ərizənin (Müqaviləyə Əlavə № 5) təqdim edilməsi nəticəsində Bank tərəfindən ŞEN-kodun ləğv edilməsi və bundan sonra Kart saxlayıcısı tərəfindən PİN Set xidmətindən istifadə olunması yolu ilə;
- Bankın Tariflərinə müvafiq olaraq Müştəri/Kart saxlayıcısı tərəfindən Bankın "XalqOnline" internet/mobil bankinq tətbiqi vasitəsilə.
3.12. Müştəri/Kart saxlayıcısı ŞEN-kodu dəyişdirdikdə yeni ŞEN-kod bu Qaydalarla nəzərdə tutulmuş təhlükəsizlik tələblərinə cavab verməlidir.
3.13. Müştəri/Kart saxlayıcısı ŞEN-kodu məhdudiyyətsiz sayda dəyişdirə bilər. ŞEN-kod üçüncü şəxslərə məlum olduqda və ya bu barədə Müştəridə/Kart saxlayıcısında şübhələr yarandıqda, Kartdan icazəsiz istifadənin qarşısını almaq məqsədilə ŞEN-kod dəyişdirilməlidir.

## 4. Korporativ ödəniş kartından istifadə edilməsi

4.1. Bank Korporativ ödəniş kartına xidmət göstərilməsini, bilavasitə nəzarəti altında olan sistem və elektron qurğuların fasiləsiz işləməsini təmin edir və Bankdan asılı olmayan səbəblərə görə Karta xidmət göstərilməsi dayandırıldıqda onun bərpa edilməsi üçün bütün mümkün olan tədbirləri həyata keçirir.
4.2. Korporativ ödəniş kartlarına xidmət göstərildiyi bütün yerlərdə Kart saxlayıcılarını müvafiq yerdə Kart üzrə xidmət göstərilməsinin mümkünlüyü barədə məlumatlandırmaq üçün beynəlxalq Ödəniş sistemlərin loqotipləri yerləşdirilir.
4.3. Bank tərəfindən həm Əməliyyatların növlərinə görə, həm də Korporativ ödəniş kartına xidmət göstərildiyi ərazilər üzrə məhdudiyyətlər qoyula bilər.
4.4. Kartdan istifadə etməklə əməliyyatların aparılması üçün Kart saxlayıcısı Kartı Ticarət-xidmət müəssisəsinin kassirinə təqdim edir və ya özünəxidmət qaydasında bankomatda müvafiq hərəkətləri edir.
4.5. Kartdan istifadə etməklə əməliyyatların aparılması zamanı QR-kod texnoloqiyasından istifadə oluna bilər. Bankın "XalqOnline" mobil bankinq tətbiqində QR-kodun skan edilməsi Müştərinin/Kart saxlayıcısının ödənişin aparılmasına dair göstərişi deməkdir.
4.6. Adi (təmaslı) Əməliyyat zamanı kassir Korporativ ödəniş kartını POS-terminalın oxuyucu qurğusuna daxil edir, klaviaturada Əməliyyatın məbləğini yığır və Kart saxlayıcısına klaviaturada ŞEN-kodu yığmaqla Əməliyyatı təsdiq etməyi təklif edir. Sorğu Banka müvafiq rabitə kanalları ilə daxil olur. ŞEN-kod düzgün yığıldığı və KH-da kifayət edən pul vəsaitləri olduğu təqdirdə Əməliyyatın aparılmasını təsdiq edən 2 (iki) nüsxədə çek çap edilir. Kassir çekin bir nüsxəsini Kart saxlayıcısına təqdim edir. Kart saxlayıcısı çekdə göstərilmiş məlumatların düzgün olduğunu yoxlayır. Əməliyyatın aparılması xüsusiyyətindən asılı olaraq çap edilmiş çek Kart saxlayıcısının və kassirin imzaları ilə təsdiq edilə bilər.
Təmassız Əməliyyat zamanı Kart saxlayıcısı Əməliyyatın aparılması üçün Korporativ ödəniş kartını terminalın oxuyucu qurğusuna müstəqil şəkildə yaxınlaşdıra bilər. Əməliyyatın məbləği Bank və ya Ticarət-xidmət müəssisəsinə xidmət göstərən bank tərəfindən müəyyən edilmiş limiti keçmədikdə təmassız qaydada aparılan Əməliyyatlar ŞEN-kod daxil edilmədən və ya Kart saxlayıcısı tərəfindən çekdə imza qoyulmadan həyata keçirilə bilər.
4.7. Kassir Kartı təqdim edən şəxsdən onun şəxsiyyətini təsdiq edən sənədin təqdim edilməsini tələb edə bilər. Şəxsiyyətini təsdiq edən sənədin olmaması kassir tərəfindən Kartı təqdim edən şəxsə Əməliyyatın aparılmasından imtina edilməsi üçün əsas ola bilər.
4.8. Bu Qaydaların 6-cı bəndinin müddəalarına müvafiq olaraq kassir müvafiq halların aydınlaşdırılmasına qədər Kartı müsadirə edə bilər.
4.9. Nəqliyyat vasitəsinin icarəyə verilməsi, otellərdə otaqların bronlaşdırılması və s. zamanı Ticarət-xidmət müəssisəsinin əməkdaşları Müştərinin/Kart saxlayıcısının Ticarət-xidmət müəssisəsi qarşısında öhdəliklərinin icrasının təminatı qismində vəsaitlərin məcburi rezervləşdirilməsini həyata keçirə bilərlər, bu zaman Ödəniş limiti rezervləşdirmə məbləğinə qədər azalır, yəni Kart üzrə Əməliyyatın məbləği bloklaşdırılır. Kart saxlayıcısı xidmətin alınmasından imtina etdiyi və ya həmin xidməti başqa yolla ödədiyi halda Ticarət-xidmət müəssisəsi ödəniş günündə Kart üzrə məbləğin bloklaşdırılmasını ləğv etməli və bunu təsdiq edən sənədi Kart saxlayıcısına təqdim etməlidir. 33 (otuz üç) təqvim günü ərzində Əməliyyatın təsdiqi baş vermədikdə Kart üzrə bloklaşdırılmış məbləğ blokdan azad edilir. Kartdan istifadə etməklə əməliyyatın aparılmasının təsdiqi alındığı təqdirdə Bank Müqaviləyə müvafiq olaraq KH üzrə pul vəsaitlərini silir.
4.10. İnternet şəbəkəsi vasitəsilə malların, işlərin və xidmətlərin ödənilməsi zamanı Kart saxlayıcısı Ticarət-xidmət müəssisəsinin etibarlılığını (fəaliyyət müddətini, işgüzar nüfuzunu və s.) müstəqil qiymətləndirir. İnternet şəbəkəsi vasitəsilə malların, işlərin və xidmətlərin ödənilməsi Ticarət-xidmət müəssisəsində mövcud olan qaydaya uyğun olaraq həyata keçirilir. Ticarət-xidmət müəssisəsi tərəfindən aşağıdakı məlumatlar Kart saxlayıcısından sorğu edilə bilər: Korporativ ödəniş kartının aid olduğu Ödəniş sistemi, Kartın nömrəsi və qüvvədə olma müddəti, Müştərinin adı/ Kart saxlayıcısının adı və soyadı (Kartda göstərildiyi kimi), CVV2/CVC2 kodu.
İnternet şəbəkəsi vasitəsilə malların, iş və xidmətlərin alınması zamanı 3D Secure xidmətini dəstəkləyən saytlarda fırıldaqçılığa qarşı yoxlama Müştərinin/Kart saxlayıcısının mobil telefon nömrəsinə SMS-mesajla göndərilən birdəfəlik 3D Secure parolu ilə həyata keçirilir. Bu parol yalnız Kart saxlayıcısına məlum olur. Göndərilmiş 3D Secure parolunu üçüncü şəxslərə açıqlamaq qadağandır. Parol düzgün yığıldıqda Kart saxlayıcısının eyniləşdirilməsi uğurla baş vermiş sayılır və Əməliyyat avtorizasiya ediləcək. 3D Secure parolu yalnız bir satınalma üçün qüvvədə olur.
4.10.1. Banka 3D Secure parolunun ötürülməsini qeyri-mümkün edən Kart saxlayıcısının istifadə etdiyi rabitə xəttinin fəaliyyətində baş vermiş pozuntulara və maneələrə, habelə həmin parolların alınması üçün istifadə olunan Müştərinin/Kart saxlayıcısının elektron qurğularında olan nasazlıqlara və qüsurlara və ya onlardan düzgün istifadə olunmamasına görə Bank məsuliyyət daşımır.
4.10.2. Bank 3D Secure xidmətinin göstərilməsini təmin edən proqram vasitələrinin fəaliyyətinə təbii fəlakətlər, elektrik enerjisinin kəsilmələri, rabitə xətlərinin zədələnmələri və s. kimi mühüm təsir göstərən qarşısı alınmaz qüvvə hallarının təsiri nəticəsində həmin proqram vasitələrinin fəaliyyətində baş vermiş kəsilmələrə görə məsuliyyət daşımır.
4.10.3 Bank Kart saxlayıcısının 3D Secure xidmətindən istifadə olunmaqla uğurlu autentifikasiyası ilə Kartın rekvizitlərindən istifadə etməklə aparılmış əməliyyatlara görə, o cümlədən 3D Secure parolunun komprometasiyası nəticəsində üçüncü şəxslərə məlum olduğu hallar da daxil olmaqla məsuliyyət daşımır.
4.11. Korporativ ödəniş kartından istifadə etməklə nağd pul vəsaitlərin alınması Beynəlxalq ödəniş sistemlərinin üzvü olan bankların Nağd vəsaitlərin verilməsi məntəqələrində və ya bankomatları vasitəsilə həyata keçirilir.
4.12. Bəzi ölkələrdə Kart üzrə nağd vəsaitlərin verilməsinin tezliyi və maksimal məbləği Kart saxlayıcısının qaldığı ölkənin qanunvericiliyi və ya xidmət göstərən bankın daxili qaydaları ilə məhdudlaşdırıla bilər.
4.13. Bankomatda Əməliyyat aparılarkən nəzərə almaq lazımdır ki, Kart saxlayıcısı nağd pul vəsaitini və ya Kartı 10-30 saniyyə ərzində bankomatdan götürmədikdə mühafizə sistemi işə salınır və pul vəsaiti və /və ya Kart bankomatın daxilinə çəkilib xüsusi bölmədə saxlanılacaq. Bu hallarda Müştəri/Kart saxlayıcısı Bankla və/və ya bankomatın məxsus olduğu bankla əlaqə saxlamalıdır, Bank isə mümkün olan növbəti addımlar barədə Müştəriyə/Kart saxlayıcısına məlumat verəcəkdir.
4.14. Bank Müştəri/Kart saxlayıcısı ilə TXM/digər bankların Nağd vəsaitlərin verilməsi məntəqələri arasında olan fikir ayrılıqlarına görə, xüsusilə malın və ya xidmət səviyyəsinin aşağı keyfiyyətdə olması ilə bağlı yaranan fikir ayrılıqlarına görə məsuliyyət daşımır. Alınmış mal TXM-ə qaytarıldıqda (xidmətdən imtina olunduqda) Müştəri/Kart saxlayıcısı TXM-dən pul vəsaitlərinin qaytarılmasını yalnız nağdsız qaydada KH-yə köçürülməsi yolu ilə tələb edə bilər. Alınmış mala (xidmətə) görə pul vəsaitlərinin qaytarılması TXM tərəfindən qaytarma çekinin rəsmiləşdirilməsi yolu ilə həyata keçirilir. Müştəri/Kart saxlayıcısı qaytarma çekini saxlamalıdır.
4.15. Malın qaytarılmasından (xidmətdən imtina olunmasından) sonra KH-yə vəsaitlərin daxil olmaması ilə bağlı yaranmış mübahisələrin həll edilməsi üçün Müştəri pretenziyanın (etiraz sorğusunun) rəsmiləşdirilməsi üçün Banka müraciət etməli və qaytarma çekini sonuncuya təqdim etməlidir. Bu mübahisələr üzrə pretenziya işi və pul vəsaitlərinin qaytarılması Ödəniş sistemlərinin müəyyən etdiyi qaydalara və müddətlərə müvafiq olaraq Bank tərəfindən həyata keçirilir.

## 5. Korporativ ödəniş kartının bloklaşdırılması

5.1. Korporativ ödəniş kartı itirildikdə, oğurlandıqda və ya ondan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə edildikdə Müştəri/Kart saxlayıcısı dərhal müstəqil şəkildə Kartı "XalqOnline" internet/mobil bankinq tətbiqində bloklaşdırmalı və

Müştəri tərəfindən Kartın ləğv olunmaqla tam bloklaşdırılması üçün Banka aşağıdakı üsullardan biri ilə müraciət edilməlidir:
- Bankın Çağrı mərkəzinə iş və qeyri-iş günlərində (24 saat ərzində) (994 12) 138 / (994 12) 404 43 43 telefon nömrələri ilə;

- Kartın itirilməsi (oğurlanması və s.) haqqında yazılı ərizənin (Müqaviləyə Əlavə № 5) Banka təqdim edilməsi yolu ilə.

5.2. Müştəri/Kart saxlayıcısı Kartı müstəqil şəkildə "XalqOnline" internet/mobil bankinq tətbiqində bloklaşdırmaq imkanına malik olmadıqda ("XalqOnline" internet/mobil bankinq tətbiqi Müştəriyə məxsus kompyuterdə və ya digər elektron qurğuda, Kart saxlayıcısının mobil telefonunda olmadıqda və ya işləmədikdə) Korporativ ödəniş kartının itirilməsi, oğurlanması və ya ondan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə edilməsi faktının məlum olduğu andan Müştəri dərhal Kartın ləğv olunmaqla tam bloklaşdırılması üçün Banka bu Qaydaların 5.1-ci bəndində nəzərdə tutulmuş üsullardan biri ilə müraciət etməlidir. Bu bənddə nəzərdə tutulmuş halda Kart saxlayıcısı da ləngimədən Kartın ləğv olunmaqla tam bloklaşdırılması üçün Bankın Çağrı mərkəzinə bu Qaydalara müvafiq olaraq və Qaydaların 5.1.-ci bəndində qeyd edilmiş telefon nömrə(si)(ləri)nə zəng etməklə müraciət edə bilər. Müştərinin/Kart saxlayıcısının Kartın bloklaşdırılması barədə şifahi tələbi Müştərinin səlahiyyətli nümayədəsinin imzası ilə təsdiq edilmiş bu barədə yazılı ərizəsinə bərabər tutulur.

Kartın bloklaşdırılması müvafiq məlumatın (ərizənin) verilməsi anından dərhal baş verir.

5.3. Kartın bloklaşdırılması barədə telefon vasitəsilə müraciət edilməsi zamanı Müştərinin səlahiyyətli nümayəndəsindən/Kart saxlayıcısından, onun adı, soyadı, atasının adından başqa Müştərinin eyniləşdirilməsi üçün Məxfi söz, Kart nömrəsinin son dörd rəqəmi, Kartın qüvvədə olma müddəti, şəxsiyyəti təsdiq edən sənədin məlumatları soruşula bilər, Müştərinin səlahiyyətli nümayəndəsi/Kart saxlayıcısı isə onları bildirməlidir.

5.4. Əvvəllər itirilmiş, oğurlanmış kimi elan edilmiş Korporativ ödəniş kartı tapıldıqda Müştəri bu barədə Banka istənilən üsulla dərhal məlumat verməli və Kartı ləngimədən Banka qaytarmalıdır.

5.5. Kartın itirilməsi, oğurlanması və ya ondan qeyri-qanuni və ya icazəsiz istifadə edilməsi barədə Banka məlumat verilməməsi halında Müştəri Kartın itirilməsi, oğurlanması və ya ondan qeyri-qanuni və ya icazəsiz istifadə edilməsi ilə bağlı riskləri özü daşıyır.

## 6. Korporativ ödəniş kartının müsadirə edilməsi

6.1. Korporativ ödəniş kartının müsadirəsi aşağıdakı hallarda aparılır:
- Kart bloklaşdırıldıqda;
- Kart saxlayıcısı Kartdan istifadə etməklə əməliyyatın aparılmasından sonra onu TXM-də, Nağd vəsaitlərin verilməsi məntəqəsində, bankomatda unutduqda;
- bankomatda 3 (üç) dəfə ardıcıl ŞEN-kod yanlış (istənilən vaxt dövrü ərzində, bir və ya fərqli elektron qurğulardan istifadə edilməklə) yığıldıqda.

6.2. Kartın müsadirəsi bankomat, Nağd vəsaitlərin verilməsi məntəqəsinin kassiri, Bankın səlahiyyətli əməkdaşı tərəfindən aparılır.

6.3. Kart müsadirə edildikdə Müştəri/Kart saxlayıcısı Banka (o cümlədən Kartı müsadirə etmiş banka) şifahi və ya yazılı şəkildə müraciət edir.

6.4. Kartın müsadirə edilməsi səbəbləri Bank tərəfindən Müştərinin və ya Kartı müsadirə etmiş digər bankın Banka müraciət etdiyi gündən növbəti 1 (bir) iş günündən gec olmayaraq araşdırılır.

6.5. Müsadirə edilmiş Kartın qaytarılması Bankın qərarı əsasında Bank (müsadirə edilmiş Kart Banka çatdırıldıqda), Kartı müsadirə etmiş digər bank tərəfindən bilavasitə Müştəriyə/Kart saxlayıcısına Kartın qaytarılmasına dair sənədə qol çəkməklə həyata keçirilir.

## 7. Korporativ ödəniş kartının qüvvədə olma müddəti. Kartdan istifadəyə xitam verilməsi.

7.1. Kart, onun üz tərəfində göstərilmiş müvafiq ilin müvafiq ayının sonuncu gününə (daxil olmaqla) qədər öz qüvvəsini saxlayır.

7.2. Əlavə kartın qüvvədə olma müddəti Əsas kartın qüvvədə olma müddətindən artıq ola bilməz.

7.3. Müştəri Əsas və/və ya Əlavə kartdan istifadə etməkdən imtina etdikdə bu barədə Banka yazılı ərizə ilə müraciət etməli və müvafiq Kart(lar)ı Banka qaytarmalıdır.

## 8. Korporativ ödəniş kartının yenidən buraxılması.

8.1. Kartın yenidən buraxılması Müştərinin yazılı ərizəsi əsasında Müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə həyata keçirilir.

8.2. Kartın yenidən buraxılması onun qüvvədə olma müddətinin bitməsi, itirilməsi, oğurlanması, zədələnməsi, Müştərinin adının/Kart saxlayıcısının adının və/və ya soyadının dəyişilməsi (Kartın üzərində göstərildikdə), Kartın kompromentasiyası halında və digər hallarda Müştərinin Banka yazılı mürəciəti əsasında həyata keçirilir.

8.3. Kartın qüvvədə olma müddətinin bitməsi ilə əlaqədar Kartın yenidən buraxılması üçün Müştəri müvafiq ərizə ilə Banka Kartın qüvvədən düşdüyü tarixdən (bu tarix daxil olmaqla) 33 (otuz üç) gün keçənədək müraciət etməlidir.

8.4. Kartın yenidən buraxılmasının mümkün olub-olmaması Bank tərəfindən müstəqil müəyyən edilir.

8.5. Kartın yenidən buraxılmasına görə Bankın Tariflərinə müvafiq olaraq xidmət haqqı tutula bilər. Əvəzinə yeni Kart buraxılmış Kart ləğv edilməsi üçün Banka təhvil verilməlidir.

8.6. Əlavə kartın yenidən buraxılması bu Qaydaların 2.5-ci, 7.2-ci bəndlərinin müddəaları nəzərə alınmaqla Əsas kartın buraxılması üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.